# Səməd bəy Mehmandarov: döyüş təcrübəsindən dövlətçilik dərsinə



**İnsan həyatının mahiyyəti çox vaxt sınaq və çətinliklər kontekstində izah olunur. Fərd dünyaya gəldiyi andan etibarən müxtəlif itkilər, məhdudiyyətlər və çətinliklərlə qarşılaşır. Bu proses həyatın təbii və qaçılmaz tərkib hissəsi kimi qiymətləndirilə bilər. Zaman keçdikcə insan fiziki, emosional və sosial baxımdan müxtəlif dəyişikliklər yaşayır və bu dəyişikliklər müəyyən mənada itki təcrübəsi ilə müşayiət olunur. Lakin əsas məsələ bu çətinliklərin mövcudluğu deyil, fərdin onlara münasibətidir. Əgər insan qarşılaşdığı maneələrə baxmayaraq, öz daxili bütövlüyünü, mənəvi dəyərlərini və məqsədlərini qoruyub saxlaya bilirsə, bu, onun psixoloji dayanıqlılığını və şəxsiyyət yetkinliyini göstərir. Belə fərdlər uğursuzluğu son nəticə kimi deyil, inkişaf mərhələsi kimi qəbul edirlər.**

Bu baxımdan demək olar ki, həyatın çətinliklərinə davamlı şəkildə uyğunlaşan və öz potensialını reallaşdırmaq istiqamətində fəaliyyətini davam etdirən insanlar məğlubiyyət anlayışını nisbi hesab edirlər. Onların fəaliyyət motivasiyası uğura, özünü gerçəkləşdirməyə və mənəvi kamilliyə yönəlmiş olur. Beləliklə deyə bilərik ki, insanın həyat yolu sınaqlarla zəngin olsa da, onun nəticəsi fərdin daxili mövqeyi və iradəsindən asılıdır.

Bu il vəfatının 95 ili tamam olan xalqımızın hərb tarixində və milli dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynamış hərbi xadimlərdən biri Səməd bəy Mehmandarovun da həyat yolu həm mürəkkəb, həm də ibrətamiz olmuşdur. O, çətin və ziddiyyətli tarixi şəraitdə yaşayıb fəaliyyət göstərməsinə baxmayaraq, milli kimliyini və mənsubiyyətini qorumağı bacarmış nadir hərbçilərdən biri kimi yadda qalmışdır.

Çar Rusiyası ordusunda xidmət, Birinci dünya müharibəsinin ağır sınaqları, imperiyanın süqutu, Cümhuriyyət dövrünün mürəkkəb siyasi-hərbi reallıqları və nəhayət, sovet hakimiyyəti illəri - bütün bu mərhələlər Mehmandarovun taleyindən keçmişdir. Lakin bu dəyişən siyasi sistemlər fonunda o, öz milli mənsubiyyətini və mənəvi dəyərlərini itirməmiş, hər zaman Azərbaycan xalqına sədaqət nümayiş etdirmişdir.

Onun müstəqil ordunun qurulması, nizami hərbi hissələrin təşkili və idarəetmə mexanizmlərinin yaradılması istiqamətində gördüyü işlər Azərbaycan dövlətçiliyinin əsas dayaqlarından birinə çevrilmişdir.

Elmi baxımdan yanaşdıqda, Səməd bəy Mehmandarovun fəaliyyəti Azərbaycan milli ordusunun institusional əsaslarının formalaşması kontekstində xüsusi əhəmiyyət daşıyır. O, hərbi idarəetmədə peşəkarlıq prinsipini önə çəkmiş, intizam və məsuliyyət anlayışlarını dövlət quruculuğunun ayrılmaz hissəsi kimi qiymətləndirmişdir. Publisistik prizmadan isə onun obrazı milli ləyaqətin, vətənə bağlılığın və prinsipiallığın rəmzi kimi təqdim oluna bilər.

Mehmandarov soyadının mənşəyi ilə bağlı tarixşünaslıqda müxtəlif elmi fərziyyələr mövcuddur. Bu fərziyyələrdən birinə görə, soyadın formalaşması Qarabağ xanlığının inzibati-idarəetmə strukturunda mövcud olmuş "mehmandar" vəzifəsi ilə bağlıdır. Məlumdur ki, xanlıqlar dönəmində idarəetmə aparatında hərbi və mülki xarakterli müxtəlif vəzifələr fəaliyyət göstərirdi. Mehmandar vəzifəsi isə diplomatik-protokol xarakterli olub, xanlığa gələn rəsmi və fəxri qonaqların qarşılanması, onların təhlükəsiz yerləşdirilməsi və təminat məsələlərinin təşkilini əhatə edirdi.

Tarixi mənbələrə əsasən, İbrahimxəlil xan Cavanşirin hakimiyyəti illərində bu vəzifəni icra edən Mirzə Əli bəyin törəmələri sonradan "Mehmandarov" soyadını qəbul etmişlər. Bu fakt soyadın birbaşa inzibati status və xidmət mövqeyi ilə bağlı olaraq təşəkkül tapdığını göstərən əsas arqumentlərdən biri hesab olunur.

Digər bir fərziyyə isə bu soyadın yaranmasını şəxsi keyfiyyətlərlə əlaqələndirir. Ədəbiyyatşünas və təzkirəçi Məhəmməd ağa Müctəhidzadə öz xatirələrində qeyd edirdi ki, Mirzə Əli bəyin səxavəti və yüksək qonaqpərvərlik ənənəsi onun "Mehmandar" kimi tanınmasına səbəb olmuş, nəticədə bu ad nəsil adı kimi formalaşmışdır. Bu yanaşma sosial-mədəni faktorun soyadın təşəkkülündə rol oynadığını ehtimal etməyə əsas verir.

Mehmandarov nəslinin bir qolu sonralar Lənkəran şəhərinə köç etmişdir. Şuşada doğulan Mirzə Sadıq bəy Mehmandarov ali hüquq təhsilini Peterburqda almış, burada Hacı Mir Abbas bəy Talışinski ilə tanış olmuş və onun dəvəti ilə 1840-cı ilin əvvəllərində Şuşadan Lənkərana köçmüşdür. Mirzə Sadıq bəy Lənkəran qəza idarəsində Muğan pristavı vəzifəsinə təyin olunmuş, dövlət qulluğunda titul məsləhətçisi mülki rütbəsinə qədər yüksəlmişdir. Bu vəzifələr həm inzibati idarəetmə, həm də hüquqi nəzarət funksiyalarını özündə birləşdirirdi. O, eyni zamanda Talışinski nəslindən olan bir xanımla da ailə qurmuşdur.

1856-cı il oktyabrın 16-da bu izdivacdan Səməd bəy Mehmandarov dünyaya gəlmişdir. Mehmandarov orta təhsilini Bakı Realnı Məktəbində alaraq riyazi və texniki fənlər üzrə möhkəm baza qazanmışdır. 1873-cü ildə peşəkar zabit hazırlığı keçmək məqsədilə II Konstantinovsk Hərbi Məktəbinə daxil olmuş, 1875-ci ildə həmin təhsil müəssisəsini artilleriya ixtisası üzrə praporşik hərbi rütbəsində bitirmişdir. Bununla da onun artilleriya zabiti kimi xidmət yolu məhz bu mərhələdən başlanmış, sonrakı illərdə taktiki hazırlıq, döyüş idarəetməsi və atəş sistemlərinin tətbiqi sahəsində qazandığı təcrübə onu imperiya ordusunda yüksək komandanlıq səviyyəsinə qədər yüksəltmişdir.

Səməd bəy Mehmandarovun peşəkar zabit kimi ilk xidmət yeri 1-ci Türküstan artilleriya briqadasının 3-cü batareyası olmuşdur. O, 1875-1876-cı illərdə Kokand xanlığı ərazisində aparılan hərbi əməliyyatlar zamanı dağlıq və çətin relyef şəraitində fəaliyyət göstərən artilleriya bölməsinin tərkibində döyüş tapşırıqlarını icra etmişdir. Səyyar artilleriya mövqelərinin dəyişdirilməsi, atəş mövqelərinin seçilməsi və birbaşa atəş dəstəyi kimi vəzifələrin yerinə yetirilməsi onun ilkin taktiki təcrübəsinin formalaşmasında mühüm rol oynamışdır. Mehmandarovun xidməti vərəqəsində həmin əməliyyatlar dövründə hər hansı yaralanma və ya kontuziya halı qeydə alınmamışdır.

Sonrakı illərdə Mehmandarov xidmət pillələri üzrə ardıcıl şəkildə irəliləyərək podporuçik və poruçik rütbələrini almışdır. Qeyri-xristian və qeyri-rus zabitlər üçün mövcud olan məhdudiyyətlərə baxmayaraq, o, 1879-cu ildə Peterburqda yerləşən Mixaylovsk Artilleriya Akademiyasına, 1881-ci ildə isə Nikolayev Baş Qərargah Akademiyasına daxil olmağa cəhd göstərmişdir. Süni maneələr səbəbindən qəbul edilməməsi onun hərbi ambisiyalarını zəiflətməmiş, əksinə, xidmətdə peşəkarlıq səviyyəsini artırmaq üçün əlavə stimul yaratmışdır.

Mehmandarov 1880-1890-cı illərdə müxtəlif artilleriya briqadalarında xidmət etmiş, batareya komandiri kimi şəxsi heyətin döyüş hazırlığına rəhbərlik etmiş, maddi-texniki təminatın təşkili üzrə təsərrüfat hissə rəisi vəzifəsini icra etmiş, eləcə də hərbi-məhkəmə strukturlarında məsul tapşırıqlar yerinə yetirmişdir. 1882-ci ildə ştabs-kapitan, 1890-cı ildə kapitan, 1898-ci ildə isə polkovnik-leytenant rütbələrinə yüksəldilmişdir. Xidməti dəftərçəsində intizam pozuntusu və ya nöqsan qeydə alınmamışdır ki, bu da onun zabit etikasına və nizamnamə tələblərinə ciddi əməl etdiyini təsdiqləyir.

1898-ci ildən Zabaykalye hərbi dairəsində xidmət edən Mehmandarov 1900-cü il iyulun 2-dən 1901-ci il martın 26-dək general-mayor Pavel Rennenkampfın ümumi komandanlığı altında fəaliyyət göstərən dəstənin tərkibində "Çin yürüşü" adlandırılan və Boxer Rebellionunun yatırılmasına yönəlmiş əməliyyatlarda iştirak etmişdir. Onun batareyası Zabaykal artilleriya divizionunun tərkibində döyüş tapşırıqları icra etmişdir.

Əliağa Şıxlinskinin xatirələrinə görə, Tsiqitsar şəhərinin mühasirəsi zamanı Mehmandarova şəhərin cənub qapılarından çıxmağa cəhd edən qüvvələri artilleriya atəşi ilə məhv etmək əmri verilmişdir. Lakin şəhərdən çıxan Çin hərbi qulluqçularının silahsız olduğunu müşahidə edən Mehmandarov silahsız insanlara qarşı birbaşa atəş açmağın hərbi şərəf prinsiplərinə zidd olduğunu bildirmişdir. Əmrə tabe olmamaqla bağlı hərbi məhkəmə təhdidi qarşısında o, formal olaraq bir neçə atəş açmış, lakin mərmilər hədəfin üzərindən keçmişdir. Nəticədə qarşı tərəf şəhərə geri çəkilmişdir. Bu epizod onun zabit ləyaqətini və döyüş şəraitində belə humanist mövqeyini nümayiş etdirən fakt kimi qiymətləndirilir.

Çin əməliyyatlarında göstərdiyi fərqlənməyə görə Mehmandarov 1901-ci il yanvarın 31-də ali fərmanla polkovnik rütbəsinə yüksəldilmişdir. Həmin il avqustun 18-də Priamur hərbi dairəsi komandanlığının sərəncamı ilə Xulançen şəhərinə ezam olunmuş, burada Zasunqariya dəstəsinin bölmələrinə komandanlıq etmişdir. 1902-ci il mayın 14-dən iyulun 17-dək isə müvəqqəti olaraq Zabaykal artilleriya divizionunun rəisi vəzifəsini icra etmişdir ki, bu da ona daha geniş operativ-idarəetmə təcrübəsi qazandırmışdır.

1903-cü il fevralın 1-də o, Çarskoe Seloda yerləşən Zabitlərin Artilleriya Məktəbinin dəyişən heyətinə daxil edilmişdir. Onun yoxluğu dövründə batareyaya müvəqqəti olaraq kapitan Əliağa Şıxlinski rəhbərlik etmişdir. Kursu fərqlənmə ilə başa vuran Mehmandarov 1903-cü il oktyabrın 1-də yenidən Zabaykaliyaya qayıdaraq 2-ci batareyanın komandanı vəzifəsini icra etməyə başlamışdır.

1903-cü il oktyabrın 14-də "Çinlilərə qarşı döyüşlərdə fərqləndiyinə görə" üzərində "Şücaətə görə" sözləri həkk olunmuş qızıl silahla təltif edilməsi onun döyüş xidmətinin rəsmi şəkildə yüksək qiymətləndirildiyini göstərir. Bu mərhələ Mehmandarovun artilleriya zabiti kimi həm taktiki, həm də operativ səviyyədə formalaşmasının mühüm dövrünü təşkil etmişdir.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***AHTM-in əməkdaşı,***
***ADMİU-nin müəllimi***